**YUNİS HÜSEYNOV**

**Şuşa təkcə şuşalılar üçün yox, bütün azərbaycanlılar üçün, vətənini, millətini sevən hər bir vətəndaşımız üçün əziz bir şəhərdir, əziz bir torpaqdır, əziz bir qaladır, əziz bir abidədir**

**Ulu Öndər**
**HEYDƏR ƏLİYEV**

# ŞUŞA ŞƏHƏRİNİN TARİXİ

**BAKI – 2013**

## ŞUŞANIN ƏHALİSİ

Bünövrəsi Sarıcalı Pənah xan tərəfindən qoyulan, siyasi, iqtisadi, sosial və mədəni sahələrdə sürətlə inkişaf edən Şuşa – Pənahabad Qarabağ xanlığının mərkəz şəhərinə çevrilirdi. Bu inkişaf **1753-cü ildə başa çatdı.** Pənah xan **Şuşanın qədim Azərbaycan memarlıq abidələri ənənələri əsasında tikmək üçün adamlar göndərib Təbriz, Ərdəbil və başqa şəhərlərdən ustalar gətirmişdir. Sonralar həmin ustaların özləri də ailələri ilə birlikdə Şuşanın sakini oldular** [9, s. 316].

Pənah xan Pənahabad tikildikdən sonra burada zərbxana açdırıb pul kəsdirdi. Pənahabadın əhalisi azərbaycanlı türklərindən ibarət idi. Pənahabad qalası **1750-ci ilin** sonlarında tikilib başa çatdıqdan sonra Pənah xan **Şahbulağı qalasının sakinləri olan bütün rəiyyətləri – əyanların mülazimlərin, ellərin və birpara kəndlərin kəndxudalarının ailələrini köçürüb bu qalanın içində yerləşdirdi. O vaxta qədər burada yaşayış evləri yox idi** [4, 116].

Pənahabada köçürülüb yerləşdirilən ailələrin xeyli hissəsi, ilk qala mərkəz olan **(1748-ci il) Bayat qalasının sakinləri idilər.** Deməli yuxarıda göstərildiyi kimi Pənahabada köçüb gələnlər **Bayat, Şahbulaq və Qarabağın digər ərazilərindən gələnlər idilər. Pənahabad Azərbaycanın – türk şəhəri idi. Qalada Azərbaycan türklərindən başqa, heç bir millətin nümayəndəsi olmamışdır.** Şuşada salınan məhəllə adları – **Təbrizli, Culfalar, Hacı Yusifli, Merdinli, Saatlı, Köçərli, Xoca-Mərcanlı, Çuxur məhəllə, Qurdlar, Çölqala, Qazançalı adları bunu** bir daha sübut edir. Tarixi faktlar sübut edir ki, rus işğalına kimi Şuşa qalasının sosial tərkibi dəyişilməz qalmışdır.

**1805-ci il 14 may Kürəkçay traktatına** qədər, Ağa Məhəmməd şah Qacarın qoşunlarından başqa Şuşa qalasına heç bir xarici ölkənin qoşununun ayağı dəyməmişdir. Qarabağın dağlıq ərazisində isə xristian albanların əcdadları yaşayırdılar.